**Nadir Bəyməmməd oğlu Əkbərov**

**UOT:334.021.35; JEL: E29; E69.**

# Azərbaycan iqtisadiyyatında institutsional tənzimləmənin əsas xüsusiyyətləri

***Xülasə***

*Məqalədə ölkə iqtisadiyyatında institutsional tənzimləmənin xüsusiyyətləri tədqiq oluur. İnstitusional tənzimlənmə sahəsindəki nəzəri əsaslar və təcürbəyə münasibət bildirilir. Ölkədə həyata keçirilən iqtisadi islahatlar və özəllşdirmə prosesində mövcud olan problemlərə diqqət artırlır. Milli iqtisadiyyatın şaxələnməsi zərurətləri və bu baxımdan ölkədəki vəziyyət dəyərləndirilir. İqtisadi inkişaf, vergi və digər daxilolmalar arasındakı bağlılıqla bağlı fikirlər irəli sürlür. Aparılan tədqiqat əsasında özəl sektorun inkişaf səviyyəsi, qeyri-neft sektorunun müasir inkişaf səviyyəsi qiymətləndirilir. Ölkə iqtisadiyyatında institutsional tənzimləmənin təkmilləşdiirlməsi ilə bağlı fikirlər ifadə olunur.*

***Açar sözlər:*** *iqtisadi inkişaf, tənzimləmə mexanizmləri, özəlləşdirmə*

## Giriş

Son iki yüz ərzində, institutsionalizm ideyasının yaratdığı inqilabi dəyişiklər iqtisadi fikirin tərəqqi "lokomotivinə" çevirilmişdir. Hesab olunur ki, belə fenomenal hadisənin əsas səbəbi, institutsional yanaşmanın  mahiyyəti ilə bağlıdır. Belə ki, institusionalizm demək olar ki, bütün modifikasiyalarında, iqtisadi kateqoriyalar və prosesləri "təmiz" formada yox, qeyri-iqtisadi faktorların və instituların təsirləri ilə birgə araşdırmaq zərurətini qəbul edir. İnstitusionalizmin liderlərinin Veblenin "İnstitutlar-iqtisadi davranışın əsasıdır", Kommonsun "İnstitut fərdi fəaliyyətin azadlığının təmin edilməsi, genişləndirilməsi və nəzarət olunmasına kollektiv təsirlərdir", Mitçellin "İnstitutlar – hakim mövqeyə malik, yüksək səviyyədə standartlaşdırlmış ictimai adətlərdir", Nortun "İnstitutlar - qaydalar, realizasiya mexanizmləri, insanların qarşılıqlı əlaqələri proseslərində təkrarlanan münasibətləri strukturlaşdıran davranış normalarıdır" kimi qiymətləndirmələri, uzun illər ərzində, inkişafın bütün mərhələlərində müşahidə olunan iqtisadi mahiyyəti və fəaliyyətin məntiqini ifadə etməkdədir. Direktiv iqtisadi idarəetmə modelinin dağılması ilə dünya ölkələrinin siyasi-ideoloji meyarlarla (kapitalist və sosialist ölkələri) təsnifatlaşdırılmasının əvəzinə, iqtisadi inkişaf səviyyəsi meyarına əsasən fərqləndirlməsi təcrübəsinin yayılması  (inkişaf etmiş, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı)  milli iqtisadi sitemlərin "tranzitivliyi" xüsusiyyəti institutsional sistemdə yeni bir "modelin" formalaşmasını şərtləndirib. İqtisadi fəaliyyətin institusional faktorları həm də institutsional mühütin formalaşması prosesinə relevant təsir edən məhdud sosial sistem başa kimi başa düşülür. Buraya konkret şəraitdə davranışların formal və qeyri-formal qaydaları toplusu,  maraq daşıyıcılarının bu qaydaların təsiri altda və həmçinin həmin qaydaların dəyişdirilməsi və ya saxlanılmasına münasibətdə fəaliyyəti başa düşülür (8).İnstitutsional mühit isə, müvafiq faktorların təsiri altda formalaşan və proseslərə, o cümlədən iqtisadiyyatın  böyüməsinə adekvat  təsir edən şəraiti etiva edir. Dünya təcrübəsində, çoxsaylı qlobal təşkilatlar və tanınmış beyin  mərkəzləri, beynəlxalq səviyyədə institutsional inkişafın fərqli indikatorlar vasitəsi ilə, bir iqtisadi artım modelindən digərinə keçiddə baş verən dəyişiklərin qiymətləndirilməsini məqsədəuyğun hesab edirlər. Belə yanaşmanı universal hesab etmək mümkün olmasa da, fikrimzcə, müəyyən şərtiliklər daxilində ümumən istifadə etmək olar.



*©Nadir Bəyməmməd oğlu Əkbərov ADİU doktorant. E-mail:akbarov.nadir.1@gmail.com*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**Milli iqtisadiyyatın şaxələnmə səviyyəsi**

Mahiyyət anlamından çıxış edərək hesab etmək olar ki, müstəqillik dönəmində ölkəmizdə formalaşmış iqtisadi inkişaf potensialı və çağdaş inkişaf çağırışlarının xarakterini nəzərə aldıqda, iqtisadi artımın institusional tənzimlənməsinin ən mühüm hədəflərindən biri kimi iqtisadiyytın bütövlükdə şaxələndirilməsi seçilməlidir. Məlum olduğu kimi, iqtisadiyyatın şaxələndirilməsinə yanaşmalar fərqli ola bilər. Belə ki, Azərbaycanda bir çox tədqiqatçılar və əksər siyasət qurucuları, iqtisadiyyatın şaxələndrilməsi dedikdə, onun fiziki parametrlərlə ölçülən olunan böyümə və genişlənməsini qəbul edirlər. Əlbəttə şaxələndirmə ümumən qeyd olunan aspektləri əhatə edir. Fikrimizcə xüsusi ilə tranzitiv xarakterli iqtisadiyyatlarda şaxələndirməyə belə yanaşma yetərli hesab edilə bilməz. Belə ki, artımın təmin edilməsində mühüm əhəmiyyətə malik olmasına baxmayaraq, məhşur "müflüsləşdirici artım" nəzəriyyəsini (Bxaqavati və Rıbçincki teoremləri) və iqtisadiyyatın ən qədim kateqoriyalarından hesab olunan resursların səmərəliliyi tələbini nəzərə aldıqda, yalnız böyümə və genişlənməni hədəfləyən şaxələndirmə siyasəti, effektiv ola bilməz.

Ağır sosial-iqtisadi və hərbi-siyasi böhranlar fonunda, milli iqtisadiyatın bazar prinsipləri üzərində yenidən formalaşdıran ölkə kimi Azərbaycanda, iqtisadi şaxələndirmə səviyyəsinin dəyərləndirilməsinə fikrimizcə, bazar iqtisadi münasibətlərinin mövcudluğu üçün zəruri olan keyfiyyət xarakteri daşıyan proseslərin təmin olunması prizmasından baxılması məqsədə uyğundur. Araşdırmalar göstərir ki, Azərbaycan reallıqlarında belə keyfiyyət proseslərinə, iqtisadiyyatın düşünülmüş, təmkinli və ardıcıl "dövlətsizləşdirilməsi" , o cümlədən, mülkiyyət çoxnövlüyünün təmin edilməsi və yeni mülkiyyət münasibətlərinin formalaşdırılması, həmçinin torpaq, aqrar islahatlar vasitəsi ilə əhalinin əksər hissəsinin məşğulluq səviyyəsinin yüksəldilməsi; kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, iqtisadiyyatın kompleksliliyinin təmin edilməsi baxımından qeyri-neft sektorunun inkişaf prioritetliyinin təmin edilməsi, iqtisadiyyatın sektorial strukturunun harmonikləşdirilməsi, regional inkişafda disproporsiyaların aradan qaldırılması vasitəsi ilə yerli iqtisadi (təbii və insan) resursların iqtisadi dövriyyəyə cəlbinin stimullaşdırlması, fiskal və monetar tənzimləmənin səmərəli koordinasiyasının təmin edilməsi aid edilə bilər. Bazar münasibətlərinin mahiyyətinə uyğun olaraq, iqtisadi fəaliyyət subyektləri arasında liberal iqtisadi münasibətlərin formalaşdrılmasının, ilk növbədə iqtisadiyyatın "dövlətsizləşdirilməsinin" mühüm şərti, mülkiyyət çoxnövlüyü və mülkiyyət hüquqlarının qorunmasının təmin edilməsidir.

Azərbaycanda mülkiyyət münaibətlərinin bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdrılması, müstəqillik dönəminin ilkin islahatlarından başlayaraq həmişə prioritetliyə malik olmuşdur. Belə ki, iqtisadi islahatlar sahəsində, 1992-ci ildəki qiymət və xarici ticarətin liberallaşdrılmasından sonrakı ən mühüm addım, 1993-cü ilin yanvar ayında "Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" qanunun qəbul edilməsi olmuşdur. 1995-ci ilin oktyabr ayında "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı" təsdiq olunmuşdur. Lakin zəruri hazırlıq işləri (müvafiq metodika və infrastrukturanın formalaşdırılması) görülmədiyindən faktiki olaraq bu Dövlət Proqramı demək olar ki, xeyli gecikmə ilə icra olunmağa başlamışdır. Ölkədə "kiçik özəlləşdirmə" 1996-cı ilin sonlarında, orta və iri müəssisələrin dövlətsizləşdirilməsi tədbirləri isə 1997-ci ilin mayından sonra həyata keçirilmişdir. 2000-ci ildə isə dövlət mülkiyyətində olan əmlakın özəlləşdirilməsinin təşkilati, iqtisadi və hüquqi əsaslarını müəyyən edən "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" yeni qanun və iqtisadiyyatda aparılan struktur islahatlarını, sahibkarlığın inkişafını və sağlam rəqabət mühitinin formalaşdırılmasını sürətləndirmək, iqtisadiyyata investisiyalar cəlb etməklə səmərəliliyin artırılmasına nail olmaq məqsədilə "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı" təsdiq edildi (1). Yeni Proqram həmin



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

vaxta qәdәr ölkәdә hәyata keçirilmiş özәllәşdirmә tәcrübәsi nәzәrә alınaraq hazırlanmışdı. Lakin bu Proqramların icrasını uğurlu hesab etmәk fikrimizcә doğru olmaz. Araşdırmalar göstәrir ki, Dövlәt proqramlarının tәxminәn 25 il müddәtindә davam edәn realizasiya prosesindә, qeyri-neft sektoruna cәlb edilmiş investisiyaların artması, sahibkar vә sәhmdar tәbәqәsinin daha da genişlәnmәsi vә ölkәdә yeni iş yerlәrinin açılması vә ya bәrpa olunması sahәsindә әhәmiyyәtli irәlilәyişlәr әldә edilsә dә, bütövlükdә dövlәt әmlakının özәllәşdirilmәsi prosesinin tamamlanması vә qarşıya qoyulmuş mәqsәdlәrә nail olunması haqqında danışmaq olmaz. Sonrakı illәrdә, bir neçә dәfә özәllәşdirmәnin sürәtlәndirilmәsi vә tәkmillәşdirilmәsi haqqında rәsmi dövlәt sәnәdlәrinin qәbul edilmәsinә baxmayaraq, hәlә dә özәlәşdirmә ilә bağlı mәqsәdlәrә tam nail olunmamışdır. Hәlә dә kifayәt qәdәr özәllәşdirilmәsi nәzәrdә tutulan, lakin özәllәşdirilmәmiş dövlәt aktivlәri vә mülkiyyәti, "gözlәmә" vәziyyәtindә son dәrәcә aşağı sәmәrliliklә istifadә olunmaqdadır.

Yaranmış şәraitdә Azәrbaycan Hökumәti son illәrdә bu mәsәlә ilә bağlı bir sıra ciddi qәrarlar qәbul etmişdir. Belә qәrarlara ilk növbәdә, 2016-cı ildә qәbul edilmiş "Azәrbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrә Strateji Yol Xәritәsi" aid edilmәlidir (2). Bu strateji sәnәddә,"Özәlәşdirmә vә dövlәt mülkiyyәtindә olan müәssisәlәrlә bağlı islahatlar" mühüm strateji hәdәf kimi müәyyәnlәşdirlmişdir. Bu hәdәf, müәlliflәrin tәbirincә, Azәrbaycan iqtisadi artım üçün yeni ehtiyat mәnbәlәrindәn faydalanmaq, iqtisadiyyatın şaxәlәndirilmәsi vә qeyri-neft sektoruna daha çox investisiyaların cәlb edilmәsi mәqsәdilә iqtisadiyyatda özәl sektorun xüsusi çәkisinin artırılması istiqamәtindә mühüm islahat proqramların hәyata keçirilmәsini tәmin edәcәkdir. Bu sәnәddә qeyd olunur ki, iqtisadi fәallığı güclәndirmәk, özәl tәşәbbüslәrә dәstәk vermәk, iqtisadiyyatda dövrün tәlәbinә uyğun olaraq zәruri struktur dәyişikliklәri aparmaq, sağlam rәqabәt mühiti formalaşdırmaq vә milli iqtisadiyyatın sәmәrәliliyini yüksәltmәk mәqsәdilә dövlәt әmlakının özәllәşdirilmәsinin sürәtlәndirilmәsi iqtisadi siyasәtin mühüm istiqamәtlәrindәn biridir. Özәllәşdirmә üzrә yeni yol xәritәsi, fikrimizcә doğru olaraq, dövlәt sәhmdarlığı vә dövlәtin mülkiyyәtçisi olduğu müәssisәlәrdә dövlәtin iştirak sәviyyәsinin müәyyәn edilmәsi ilә bağlı iki mühüm mәsәlәnin nәzәrә alınmasını, dövlәt mülkiyyәtli müәssisәlәrin aktivlәrindә özәl sektorun xüsusi çәkisinin artırılması vә ya fәaliyyәtinin tәkmillәşdirilmәsi vә rentabelliyinin artırılması tәdbirlәrinin prioritetliyi tәmin edilmәlidir.

Bütövlükdә indiyәdәk ölkәmizdә aparılmış özәllәşdirmә proqramlarının icrası vәziyyәtinin kәmiyyәt prizmasından dәyәrlәndirmәk üçün, son 2017-2018-ci illәrdә özәllәşdirmә vә özәllәşdirilmiş müәssisәlәrlә dövlәt büdcәsi arasındakı münasibәtlәrin vә öhdәliklәrin yerinә yetirilmәsinә diqqәt yetirmәyi mәqsәdә müvafiq hesab edirik. Azәrbaycan Respublikası Hesablama Palatasının apardığı nәzarәt tәdbirlәrinin nәticәsi olaraq vә müvafiq dövrlәrdә Dövlәt Büdcәsi haqqında qanun zәrfinә daxil edilmiş mәlumatlara әsasәn, müәyyәnlәşdirilmişdir ki, Dövlәt mülkiyyәtinin özәllәşdirilmәsindәn daxilolmalar, hәmişә çox böyük kәsirlәrlә icra edilmişdir (3). Belә ki, 2018-cı ildә, özәllәşdirmә mәqsәdi ilә müvafiq dövlәt orqanın sәrәncamına verilmiş vә 2019-ci ilin birinci yarısınadәk özәllәşdirilmәmiş 733 dövlәt müәssisә vә obyektlәrinin әsas vәsaitlәrinin dәyәri balans dәyәri 35,3 mln. manat, özәllәşdirilmәsinә mәhdudiyyәtlәr qoyulmamış vә tam özәllәşdirilmәmiş 131 sәhmdar cәmiyyәti üzrә nizamnamә kapitalında dövlәtә mәxsus payın hәcmi 103.6 mln. manat tәşkil etmişdir. 2018-ci ildә isә dövlәt büdcәsi kәsirinin maliyyәlәşdirilmә mәnbәlәrindәn biri kimi, dövlәt әmlakının özәllәşdirilmәsindәn daxilolmalar nәzәrdә tutulmuş 200 mln. manat әvәzinә cәmi 40,3 mln.manat tәşkil etmişdir. 01.07.2019-cu il tarixә dövlәt müәssisәlәrinin iştirakı ilә yaradılmış vә nizamnamә kapitalında dövlәtin payı olan 26 (bunlardan 15-i özәllәşdirmәyә açıq olan) birgә müәssisә mövcud olmuşdur ki, onların ümumilikdә 38,5 mln. manat hәcmindә nizamnamә kapitalında

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

dövlətin payı 8,9 mln. manat təşkil etmişdir. Araşdırmalar göstərir ki, mahiyyət və missiyası etibarı ilə milli iqtisadiyyatın bazar prinsiplərinə transformasiyası və davamlı iqtisadi artım potensialının formalaşdrılmasında həlledici dominantlardan birinə çevirilməsi zəruri olan dövlət mülkiyyətinin özələşdirilməsi və bütövlükdə iqtisadiyyatın "dövlətsizləşdirilməsi" prosesinin səmərəliliyi qənaətbəxş olmamışdır. Ona görədə dünya təcrübəsinin dərslərini nəzərə alaraq qeyd edə bilərik ki, Azərbaycanda indiki mərhələdə iqtisadi artımın davamlılığının təmin edilməsinin mühüm bir institutsional mənbəyi məhz mülkiyyətin özəlləşdirilməsi və iqtisadiyyatın "dövlətsizləşdirilməsi"nin sürətləndirilməsi təşkil etməlidir.

Məlum olduğu kimi, iqtisadi nəzəriyyədə, geniş anlamda özəlləşdirmə, insanların ehtiyacının təmin edilməsi məqsədi ilə, cəmiyyətin, dövlətlə müqayisədə özəl strukturlara daha çox etibar etlməsinin ifadəsi kimi qəbul edilir. Dünya təcrübəsinə görə məhsuldarlığın artırılmasının ən yaxşı yolu özəlləşdirmə hesab edilir. Belə ki, özəl mülkiyyət hüquqları, bazar qüvvələri və rəqabətlə birgə vəsaitlərdən daha səmərəli istifadəni şərtləndirir. E.A.Savaşın dediyi kimi, dövlətin əsas vəzifəsi və funksiyası "avar çəkmə" mahiyyəti daşıyan xidmət göstərmə deyil, idarə etmədir. Bütövlükdə özəlləşdirməni zəruri edən, aktuallaşdıran və təşviq edən əsas səbəblərin hamısı dövlətin davam edən böyüməsindən qaynaqlanan təhdidlərdən yaranır (5). Müasir dövrdə, ümumbəşəri xarakter almış, geniş coğrafiyaya malik mükiyyətin dövlətsizləşdirilməsi prosesinin, sənayecə inkişaf etmiş dövlətlərdəki təcrübədən çıxış edərək, Azərbaycanda özəlləşdirmə prosesinin perspektivinə mövcud iqtisadi reallıqlar çərçivəsində müsbət təsir göstərmək imkanına malik olan xüsusiyyətlərə diqqət yetirilməsini vacib hesab edirik. Nəzərə almaq lazımdır ki, inkişaf etmiş bir sıra Avropa ölkələrində özəlləşdirmə üzrə kifayət qədər təcrübə toplansa da, onun Azərbaycanda bir başa tətbiqi məqsədə uyğun hesab edilmir. Əvvəla, Azərbaycanda həmin dövlətlərdə olduğu kimi səhmlərin real məzənnəsini müəyyənləşdirən fond birjaları və ona tələbin formalaşmasında mühüm rol oynaya biləcək sərbəst kapital bazarı yoxdur. İkincisi, özəlləşdirmənin gedişində xüsusi rol oynamaq imkanına malik investisiya mühiti və onun təminatı məsələləri bizim ölkəmizdə külli miqdarda maliyyə vəsaitlərinin səfərbərliyə alınmasını tələb edir və onun həcmi ilə nəticənin səmərəliliyi arasındakı mütənasiblik xüsusi əhəmiyyət kəsb edir. Ölkəmizdə dövlət mülkiyyətinin özəlləşdrilməsinin bütövlükdə iqtisadi inkişaf prosesinə keyfiyyət təsirlərinin qiymətləndirilməsində, sahibkarlığın inkişafı, investisiyanın cəlbi, qeyri-dövlət sektorunun böyüməsi kimi istiqmətlərdə statistik göstəricilərin təhlilini vacib hesab edirik.

**Cədvəl 1.**

**Sahibkarlığın inkiaf göstəriciləri (2019 il)**

| | *Cəmi* | *o cümlədən* | | |
|---|---|---|---|---|
| | | **Mikro** | **Kiçik** | **Orta** |
| ***Yaradılmış əlavə dəyər, milyon manat*** | 11071,7 | 4900,8 | 1423,2 | 4747,7 |
| ***İşçilərin sayı, min nəfər*** | 332,2 | 40,2 | 85,1 | 206,9 |
| ***Orta aylıq nominal əməkhaqqı, manat*** | 531,0 | 332,5 | 437,0 | 624,6 |
| ***Əsas kapitala investisiyalar, milyon manat*** | 3422,2 | 515,5 | 494,2 | 2412,5 |
| ***Məhsul buraxlışı, milyon manat*** | 19386,7 | 7523,8 | 2553,8 | 9309,1 |
| ***Mikro və s subyektlərin sayı*** | 271304 | 262622 | 5956 | 2726 |
| ***O cümlədən qeyri-dövlət sektoru*** | 269520 | 261378 | 5516 | 2126 |
| ***ÖlLkə üzrə ÜDM-in həcmi*** | 81896,2 | | | |
| ***Ölkə üzrə məhsul buraxılışınn həcmi*** | 115582,0 | | | |

Cədvəl DSK (https://www.stat.gov.az/menu/6/) və İqtisadiyyat Nazirliyinin (https://www.economy.gov.az) məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Özəlləşdirmənin bütün digər sosial-iqtisadi və siyasi nəticələri haqqında danışmasaq belə, iqtisadi artıma təsirliliyi haqqında ən mühüm parametr fikrimizcə, ölkədə ÜDM istehsalında, məşğulluğun strukturunda və orta əmək haqqı səviyyələri kəsimində sektorial nisbətlərin qiymətləndirilməsini vacib hesab edirik.

**Cədvəl 2.**

**İqtisadiyyatda qeyri dövlət sektorunun xüsusi çəkisi (%)**

| | 2005 | 2010 | 2015 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| **ÜDM istehsalı** | 73.8 | 82.7 | 81.2 | 84.7 | 85.0 |
| **Məşğulluq** | 69.7 | 73.6 | 74.8 | 76.3 | 76.6 |
| **Kredit qoyuluşu** | 60.8 | 82.4 | 93.7 | 91.1 | 93.4 |
| **Kredit qouluşu (özəl banklar)** | 45.3 | 55.3 | 63.8 | 80.9 | 80.7 |

Cədvəl DSK (https://www.stat.gov.az/menu/6/) və İqtisadiyyat Nazirliyinin (https://www.economy.gov.az)məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.



İqtisadiyyatı şaxələndirməklə iqtisadi artımın davamlılığının təmin edilməsini hədəfləyən inkişaf strategiyasının formalaşdırılmasının mühüm komponentlərindən birini, neft-qaz gəlirlərindən asılılıq səviyyəsinin azaldılması təşkil edir. Bu məqsədə qısa müddətdə nail olmaq istəyən Azərbaycan üçün, qeyri-neft sektoru sahələrinin, xüsusilə emal sənayesinin üstün inkişafı əsas prioritetlərdəndir. Ona görədə bu dövrdə qeyri neft sektoruna və emal sənayesinə investisiya qoyuluşunun, o cümlədən dövlət büdcəsi hesabına və xarici investisiyaların cəlbi iqtisadi siyasətin cari hədəfləri sırasına aid edilmişdir. Bu sırada təbii ki, birbaşa xarici investisiyaların cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi (2) 2025-ci ilədək hökumətin nail olmağı qarşısına qoyduğu dörd hədəf indikatorunun birincisi "qeyri-neft sektoruna yönəldilmiş BXİ-ın qeyri-neft ÜDM-dəki payının 4 faizə çatdırılması" (2015-ci ildə 2.6 faiz olub) kimi müəyyən edilib (2). Araşdırmalara əsasən, 2000-2017-ci illərdə Azərbaycan iqtisadiyyatına yönəldilən 77,8 mlrd. dollar həcmində birbaşa xarici investisiyaların 66,8 mlrd. dolları yaxud 85,9%-i neft sektorunda, qalan 10,9 mlrd. dolları (14.1%-i) isə qeyri-neft sahələrində reallaşdırılıb. 2003-2014-cü illər dövründə qeyri-neft sektoruna cəlb edilən birbaşa xarici investisiyaların məbləğində tədrici artım müşahidə olunsa da, son 2015-2017-ci illərdə volotillik baş verib: əvvəlki illə müqayisədə 2015-ci ildə 34,7% azalıb, 2016-cı ildə 98,3% artıb, 2017-ci ildə isə yenidən 52,4 faiz azalıb (6). Birbaşa xarici investisiyaların cəlb edilməsi üçün xarici investorların ölkə və onun gözlənilən inkişaf perspektivləri haqqında, ölkədə biznes və investisiya mühiti, bu mühitdə baş verən dəyişikliklər barəsində kifayət qədər məlumatı olmalıdır. Tanınmış investisiya mütəxəssisləri, Dunning və Lundan (2008) bu və ya digər ölkəyə daxil olan birbaşa xarici investisiyaların motivasiya mənbəyindən asılı olaraq bu cür investisiyaların 4 tipini fərqləndirirlər: ölkənin təbii resurslara malik olması; təyinat ölkəsində bazarın miqyası və əlçatanlığı; daxili bazarda firmanın strateji aktivlərə sahib olması; və istehsalın səmərəliliyinin yüksəldilməsi hesabına xərclərə qənaət niyyəti (9). Onların qənaətlərinə əsasən, motivasiya mənbəyindən və investisiya tipindən asılı olaraq investorlar təyinat ölkəsindəki hökumətin siyasi qərarlarına və ölkədəki ümumi investisiya mühitinə fərqli reaksiyalar göstərirlər. Hesab edilir ki, təbii ehtiyatlara və strateji aktivlərə sərmayə qoyan investorlar investisiya mühitində baş verən dəyişikliklərə çox da həssas olmurlar. Xərclərə qənaət motivindən çıxış edən investorlar isə onların məsrəflərini artıra biləcək yaxud sərbəst mübadiləyə maneələr yaradacaq hər cür dəyişikliklərə çox həssas olurlar. Başqa sözlə, bu tezislərdən çıxış edərək deyə bilərik ki, Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun xarici birbaşa investisiyalar üçün

cəlbediliyinin yüksəldilməsinin böyük potensialı mövcuddur. Çünki emal sənayesi və digər istehsal sahələri məhz xərclərə qənaət və bazarların miqyası baxımından investorlar üçün maraq doğura biləcək sahələrə aiddir. Bütövlükdə qeyri neft sektorunun üstün inkişafının prioritetliyinin təmin edilməsi istiqamətində aparılan tədbirlər kompleksi sayəsində Azərbaycanda bu istiqamətdə fundamental inkişaf trendinin formalaşdığını əminliklə təsdiq etmək mümkündür.

**Cədvəl 3.**

**İqtisadiyatın neft və qeyri-neft sektorunun artım dinamikası (%)**

| | 2005 | 2010 | 2015 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| **Məcmu ÜDM** | 126.5 | 105.0 | 101.1 | 101.5 | 102.2 |
| **Neft ÜDM -i** | 166.3 | 101.8 | 100.6 | 100.5 | 103.6 |
| **Qeyri-neft ÜDM-i** | 108.3 | 107.7 | 101.1 | 102.0 | 103.6 |

Cədvəl DSK (https://www.stat.gov.az/menu/6/) və İqtisadiyyat Nazirliyinin (https://www.economy.gov.az)məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Qeyri-neft sektorunun inkişaf etdirilməsi və onun ixrac potensialının artırılması məqsədilə, istər qeyri-neft sənayesi, istər kənd təsərrüfatı, istərsə də xidmət sektorunda istehsalın və infrastruktur təminatının genişləndirilməsi və modernləşdirilməsi istiqamətində görülən işlər də strateji əhəmiyyət kəsb edir. Xüsusilə, son dövrlərdə qəbul edilmiş dövlət proqramları çərçivəsində regionlarda - Sumqayıt, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Neftçala, Masallı və s. rayonlarda yaradılmış çoxlu sayda sənaye və texnoloji parkları, sənaye məhəllələrini və onların ərazisində fəaliyyət göstərən yeni istehsal müəssisələrini misal göstərmək olar ki, bütün bunlar da ölkənin iqtisadi potensialının və ixrac imkanlarının yüksəlməsinə xidmət edir.

**İqtisadi artımın təmin edilməsində təsərrüfat mexanizminin rolu**

Azərbaycan iqtisadiyyatının çağdaş inkişaf mərhələsində institusional tənzmlənməsinin ikinci mühüm hədəfi-istiqaməti kimi, müasir çağırışlara cavab verən iqtisadi mühütin, o cümlədən, dövlət – özəl əməkdaşlıq münasibətlərini səmərəli tənzimləyən yeni təsərrüfatçılıq mexanizminin formalaşdrılması (mülki, vergi, gömrük, əmək məcəllələri və digər müvafiq qanunvericilik və s. ) müəyyənləşdirilə bilər. Burada əsas məqamlar, təsərrüfatçılıq mühütinin iqtisadi münasibətlərin yetərli liberallığını təmin etməsi, qanunvericilik normalarının azad rəqabətliliyi və müqavilə öhdəliklərinə əməl edilməsinin təminatı potensialına malik olması, süni maneələr yaradan "qanunafobiya" meyillərinin qarşısının alınması və s. təşkil edir. Son təxminən 20 il ərzində Azərbaycan Hökumətinin iqtisadi mexanizmin təkmilləşdrilməsinə ana xətti vergi mexanizminin, o cümlədən vergi növləri və dərəcələr üzrə differensasiyasının, vergi inzibatçılığının təkmilləşdirilməsi tutur. Hər yeni ilin Dövlət büdcənin formalaşması mərhələsində vergi münasibətlərinin təkmilləşdirilməsi, təsərrüfatçılıq mühitinin yaxşılaşdırılması haqqında əhəmiyyətli dəyişiklər həyata keçirilmişdir. Bu xətt, tədqiqat dövründə qəbul edilmiş çoxsaylı stateji əhəmiyyətli siyasət sənədlərində də əks olunmuşdur. Məsələn, 2012-ci ildə qəbul olunmuş "Azərbaycan 2020: Gələcəyə baxış" konsepsiyasında nəzərdə tutulur ki, iqtisadi sistemin rəqabət qabiliyyətinin daha da artırılması məqsədi ilə tədricən passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçid təmin ediləcək, vergi dərəcələrinin optimallaşdırılması istiqamətində həyata keçiriləcək tədbirlər sahibkarlıq fəaliyyəti üçün əlverişli mühit yaradılmasına kömək edəcəkdir (4). İstehsal xərclərini formalaşdıran amil kimi vergilərin ənənvi olaraq Azərbaycanda iqtisadi resursların ayrı-ayrı sahələrdə istifadə səviyyəsinə təsirini mühüm hesab edən ekspertlərin fikrincə vergi sistemi, təbii resurslardan əldə edilən renta ilə yanaşı, dövlət büdcəsinin gəlirlərinin formalaşmasına da əhəmiyyətli dərəcədə təsir göstərmişdir (7). Dünya təcrübəsindən məlumdur ki,



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

vergiqoymanın üç xüsusiyyəti iqtisadi artım və makroiqtisadi tarazlıq baxımından əhəmiyyətlidir. Birincisi, vergilərin iqtisadi subyektlərin stimullarına təsir dərəcəsi və müddəti yüksək olduqda, onlar istehlakçıların, istehsalçıların və işçilərin davranışına təsir göstərməklə iqtisadi səmərəliliyi azalda bilər. Bu təsirlər cari dövrdə maliyyələşdiriləcək büdcə xərclərinin səmərəliliyi qiymətləndirilərkən nəzərə alınmalıdır. İkincisi, vegiqoymanın əhalinin gəlirlərinə bölüşdürücü təsiri iqtisadi səmərəlilik baxımından xərclərin yaranmasına səbəb olsa da, ədalət və ya əhəmiyyətli ölçüdə müəyyən edilməli olan bərabərlik məsələlərinin nəzərə alınmasını tələb edir. Üçüncüsü, vergiqoyma qaydalarının praktiki tətbiqi və onun yerinə yetirilməsi (ona əməl olunması) ilə bağlı yaranan xərclər iqtisadi səmərəliliyə və vergi sisteminin ədalətliliyi haqqında cəmiyyətdə formalaşan rəylərə təsir göstərir (10). Vergilərin səviyyəsi və strukturu iqtisadi subyektlərin davranışlarına təsir edən əsas amillərdən biridir. Belə ki, vergilərin strukturunun dəyişməsi məcmu tələb və istehlakın, qənaət və investisiya xərclərinin dəyişməsinə səbəb olur; vergi yükünün artması isə iqtisadi subyektlərin davranışı və artıma mənfi təsir göstərir. Təcrübə göstərir ki, büdcənin cari xərclərinin dəyişməsi daxili tələbin tənzimlənməsində əhəmiyyətli olsa da, iqtisadi artım baxımından fiskal siyasətin xarakterinin daha mühüm əhəmiyyəti vardır. Belə ki, vergi səviyyəsinin tez-tez dəyişməsinin mənfi effekti tarazlığın pozulmasını şərtləndirən amillərdən biridir. Araşdırmalar göstərir ki, fiskal siyasət ölkədə iqtisadi parametrlərə qısa və uzun müddətli dövrlərdə fərqli təsir göstərir. Belə ki, iqtisadi durğunluq dövründə stimullaşdırıcı fiskal siyasət iqtisadi artım üçün əlverişli şərait yaradır. Uzunmüddətli dövrdə isə iqtisadi artımı stimullaşdırması üçün dövlət bücəsinin xərclərində əsaslı xərclərin payının artırılmasının mühüm əhəmiyyəti vardır. Belə ki, araşdırmalar göstərir ki, xammal hasilatına əsaslanan iqtisadiyyatlarda sərəncamda qalan gəlirlərin əsas hissəsinin dövlətin sərəncamında olması emal sektoruna əlavə resursların cəlb edilməsi vasitəsinə çevrilə bilər. Bu baxımdan, Azərbaycanda neft gəlirlərinin dövlət büdcəsi vasitəsilə qeyri-neft sektoruna yönəldilən hissəsinin həcminin artım tempi iqtisadi artımda mühüm rol oynaması təbiidir. Doğrudanda son illərdə Azərbaycanda tələbin həcminin formalaşmasında dövlət büdcəsinin xərclərinin rolu güclənmiş və tələbin yüksəlməsi səbəbindən büdcənin iqtisadi artımda rolu artmışdır. Araşdırmalar göstərir ki, eyni zamanda Azərbaycanda qeyri-neft ÜDM-nin artımı ilə vergi gəlirlərinin artımı arasında əlaqə zəif olmuşdur. Bu xüsusiyyət dövlət büdcəsinin dövrü tərəddüdlərdə stabilləşdirici rolunun məhdudluğunu göstərir. Fikrimizcə bu büdcənin qeyri-neft gəlirlərinin əhəmiyyətli hissəsinin neft gəlirləri hesabına formalaşması ilə əlaqədardır.

Birbaşa xarici investisiyaların cəlb edilməsi üçün ölkədə zəruri mühitin qiymətləndiririlməsi baxımından Dünya Bankının "Qlobal investisiyaların rəqabət qabiliyyətliliyi hesabatı 2017-2018: xarici investor perspektivləri və siyasət nəticələri" adlı tədqiqatında qeyd edilir ki, 754 beynəlxalq şirkət rəhbərləri arasında keçirdiyi sorğunun nəticələrinə görə birbaşa investisiyalarla bağlı qərarlara təsir edən amillər sırasında yüksək yerlərdə: ölkədə siyasi sabitlik və təhlükəsizlik (sorğuda iştirak edənlərin 50%-i son dərəcə vacib, 37%-i isə vacib kimi qeyd edib); hüquqi və tənzimləyici mühit (müvafiq olaraq 40% və 46%); daxili bazarın miqyası (42% və 38%); 4) makroiqtisadi sabitlik və mübadilə kursu (34% və 44%) (11). Sıralanmada sonrakı yerləri işçilərin bacarıq və qabiliyyətləri (28% və 45%), yaxşı fiziki infrastruktur (25% və 46%), aşağı vergi dərəcələri (19% və 39%), aşağı əmək və material xərcləri (18% və 35%), torpaq və daşınmaz əmlakın əlçatanlığı (14% və 28%) və daxili bazarda maliyyə resurslarına əlçatanlıq (16% və 28%) kimi amillər dayanıb. Göründüyü kimi sadalanan amilər baxımından ölkəmizdə qeyri-neft sektorunun investisiya cəlbediciliyinin yüksəldilməsi üçün yetərli baza vardır. Lakin qeyd olunan araşdırmalarda əksini tapmış digər mühüm tələblər baxımından, məsələn, sorğuda iştirak edən şirkət



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

rəhbərləri hesab edirlər ki, ölkədə tənzimləmənin (qanunvericilik praktikasının) öncədən başa düşülən və proqnozlaşdırıla bilən olması son dərəcə vacibdir. Bu baxımdan dövlət qurumlarının davranışlarında şəffaflıq və bu davranışların proqnozlaşdırıla bilən olması (37% son dərəcə vacib, 45% isə vacib hesab edib), qanunvericilikdə investisiyaların qorunmasına təminat verilməsi (uyğun olaraq 45% və 36%), biznesə başlamanın asan olması və mülkiyyətin qorunması (36% və 41%) kimi amillər xüsusilə əhəmiyyətli hesab olunur. İnvestisiya stimulları (21% və 35%), ticarət sazişlərində preferensiyalar (14% və 40%) və ikitərəfli (ölkələrarası) investisiya sazişlərinin olması (15% və 36%) kimi amillər isə sıralanmanın aşağısında qərarlaşıb.

Milli iqtisadiyyatda institusional tənzimləmənin əsas hədəf hədəf-istiqamətlərindən biri də fikrimizcə, dövlətin bilavasitə iqtisadi fəaliyyətdə ”tərəf” kimi iştirakı xüsusiyyətlərinin səmərəli verifikasiyasının təmin edilməsidir. Araşdırmalar göstərir ki, milli iqtisadiyyatın diversifikasiyası və neftdən asılılığın azaldılması istiqamətində aparılmış struktur və institusional islahatlarının nəticəliliyinin yüksəkliyini təmin edən mühüm amilərdən biri bu dövrdə iqtisadi siyasətdə proqramlılığın gücləndrilməsi hesab edilə bilər. Məsələn 2004-cü ildən başlayaraq ölkəmizdə bu istiqamətdə qəbul edilmiş Dövlət Proqramları və inkişaf strategiyalarının tərkibi göstərir ki, həqiətən bu dövrdəki iqtisadi siyasətdə artımın davamlılığının təmin edilməsi hədəfinin əldə olunmasını şərtləndirən əsas amil qeyri neft sektorunun üstün inkişafı, regional inkişafda tarazlığın bərpası, bərpa olunan resurslardan istifadənin genişləndirilməsi və təsərrüfatçılıq mexanizminin, o cümlədən vergi inzibatçılğının yaxşıladırılmasını ehtiva edən bir sıra sosial-iqtisadi inkişaf proqramları və strateji sənədlərin qəbul edilməsi və reallaşdırılması ölkəmizin sosial-iqtisadi həyatında ciddi dönüş yaratmışdır. “Azərbaycan 2020: Gələcəyə baxış” konsepsiyasının başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla, Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi və s. kimi xüsusiyyətlərə malik inkişaf mərhələsinə nail olunması kimi seçilmişdir. Uzun illər ərzində milli iqtisadiyyatın strukturunun məqsədli təkmilləşdirilməsi üçün ilk dəfə olaraq konkret sahələr və struktur təkmilləşdirilməsinin vəzifələri müəyyənləşdirlmişdir. Nəzərdə tutulur ki, struktur təkmilləşdirmənin prioritet istiqamətlərini, neft-qaz sektoru və neft-kimya sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi və inkişaf etdirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi, aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin gücləndirilməsi, ticarət və xidmət fəaliyyəti növlərinin genişləndirilməsi və inkişaf etdirilməsi, xarici ticarətin və investisiyaların strukturunun təkmilləşdirilməsi təşkil eədcəkdir. Struktur təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilərkən, ixrac yönümlü iqtisadi model əsas götürülmüşdür və nəzərdə tutulur ki, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsi qeyri-neft sənayesinin sürətli inkişafı ilə yanaşı, qeyri-neft ixracının artımına səbəb olacaqdır. Bununla yanaşı hesab olunur ki, innovasiya fəaliyyətinin təşviqi və genişləndirilməsi, struktur təkmilləşdirilməsinin ən mühüm nəticəsi kimi, ölkədə biliyə əsaslanan iqtisadiyyatın formalaşması üçün əlverişli zəmin yaradacaqdır. Belə şəraitdə çox mühüm əhəmiyyətə malik olan yeni formatlı inkişaf strategiyası - Milli iqtisadiyyat perspektivi və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Nəzərdə tutulur ki, milli iqtisadiyyatın perspektivləri baxımından seçilmiş dörd strateji hədəfin realizasiyası, makroiqtisadi sabitliyin təmin edilməsi; dövlət aktivlərinin səmərəliliyin artırılması və özəlləşdirmə yolu ilə iqtisadi dinamikliyin təmin edilməsi; insan kapitalı və əmək bazarının inkişafının milli iqtisadiyyat hədəflərinə uyğunlaşdırılması; biznes mühitinin daha da yaxşılaşdırılmasını təmin edəcəkdir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Araşdırmalar göstərir ki, yol xəritələrinin uğurlu realizasiyası, aşağıdakı mühüm məsələlərin həllinə rəvac verməklə, iqtisadiyyatın 11 sektorunda dayanıqlı və davamlı inkişafa nail olunmasını təmin edəcəkdir.

- İqtisadiyyatın şaxələndirilməsində xarici investorların rolunun- təsirliyinin genişləndirilməsi məqsədi ilə qeyri-neft sektoruna daha çox investisiya cəlb edilməsinin təmin edilməsi.
- Xarici ticarətin son dərəcə volotil neft qiymətlərindən asılılığını azaltmaq üçün qeyri-neft sektoru məhsullarının üstün ixracının təmin edilməsi.
- İxracın şaxələndirilməsi üçün ticari mal və xidmətlər sektorunda, iş yerlərinin genişləndirilməsi.
- Dövlət büdcəsinin ARDNF-in transfertlərindən asılılığının azaldılması, mövcud yüksək asılılıq, Azərbaycan iqtisadiyyatına neft qiymətlərindəki dəyişikliklərin ciddi təsirinin əsas səbəblərindən biridir. Ona görədə dövlət büdcəsinin Neft Fondundan daha az asılı olmasını tələb edir. Bu istiqamətdə son illərdə formalaşmış təcrübəni təəssüf ki, davamlı artım məqsədlərinə adekvat hesab etmək mümkün deyildir.

Beləliklə belə qənaət formalaşdırmaq mümkündür ki, strateji yol xəritələrinin həyata keçirilməsi nəticəsində real sektorla maliyyə sektoru arasında tarazlığın təmin edilməsi, sürətli iqtisadi artım templərinin əldə olunması, yüz minlərlə yeni iş yerlərinin yaradılması, qeyri-neft sektoruna yönəldilən xarici investisiyaların həcminin artırılması, eləcə də bu sektorun ixrac potensialının yüksəldilməsi və bütövlükdə ölkə iqtisadiyyatının neftdən asılılığının minimuma endirilməsi və s. milli iqtisadiyyatın rəqabət qabiliyyətinin, inklüzivliyin və sosial rifahın daha da artırılmasını təmin edəcəkdir.



**Nəticə**

Müasir inkişaf mərhələsində, milli iqtisadiyyatda, xüsusi ilə transformasiya halında olan Azərbaycan kimi ölkələrin iqtisadi sistemlərində institutların yaradılması, əslində, iqtisadi artım və inkişafın davamlılığı və dayanıqlığına, çoxsaylı faktorların təsirinin uzlaşdırılması məqsədi ilə, yaranmış şəraitdə davranışın daha səmərəli hesab edilən modelinin formalaşdırılması mahiyyətini daşıyır. İnstitutların praktiki funksiyaları, nəzəri mülahizələrin konkretləşdirilməsi və onların təsərrüfat fəaliyyəti prosesində doğruluğunun yoxlanılması, iqtisadi tənzimləmənin səmərəli forma və metodlarının axtarılması, bütün səviyyələrində effektiv təsərrüfatçılıq mexanizminin yaradılmasında təzahür olunur. Azərbaycanda bazar iqtisadi münasibətlərinin təsbit edilməsi prosesində institusional tənzimlənin bir sıra mühüm istiqamətləri iqtisadi siyasətin mühüm dominantları kimi diqqət mərkəzində olmuşdur. Belə istiqamətlərə, milli iqtisadiyyatın şaxələndirilməsi və bu prosesdə xarici investisiyanın cəlbi, iqtisadiyyatın daha təkmil strukturunun yaradılması, iqtisadi inkişafın mühüm amili kimi sahibkarlığın və qeyri-neft sektorunun üstün inkişaf sürətinin təmin edilməsi, iqtisadi siyasətdə dövlətin rolunun tədricən dəyişdirilməsi, iqtisadi siyasətdə proqramlığın gücləndirilməsi, təsərrüaft mexanizminin çevik təkmilləşdrilməsi və s. qeyd edilə bilər. Bəzi məsələlərdə, o cümlədən təsərrüfat mexanizminin, ilk növbədə bəzi qanunvericilik sahələrinin hədsiz sürətlə transformasiyasının iqtisadiyyatın dayanıqlığına mənfi təsirlərinin mümkünlüyünün nəzərə alınması, iqtisadiyyatın struktur islahatlarını sürətləndirilməsi və iqtisadi şaxələndirmədə sistemliliyin təmin olunması kimi məsələlər indiki şəraitdə diqqət mərkəzində olmalıdır.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı" 1997, https://president.az/files/
2. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" 2016, http://e-qanun.az/framework/34254
3. Azərbaycan Respublikası Hesablama Palatasının Hesabatları
4. Azərbaycan 2020: Gələcəyə baxış" konsepsiyası 2012 https://president.az/
5. E.S.Savaş "Özəllləşdirmə və ictimai özəl əməkdaşlıqlar" Bakı 2001
6. A.Mehdiyev Azərbaycan iqtisadiyyatında birbaşa xarici investisiyalar: mövcud durum, inkişaf meylləri və problemlər https://bakuresearchinstitute.org/ 2018
7. R.Həsənov Müasir Azərbaycanın sosial-iqtisadi inkişaf modelinin xüsusiyyətləri Azərbaycanın vergi jurnalı N 2/2012,s.103-118
8. Терещенко Д.С. Особенности институционального подхода к изучению экономического роста // Экономика, предпринимательство и право. –2012. – № 2 (13). – с. 32-47. – http://www.creativeconomy.ru/articles/19117/).
9. Dunning J.H., and Lundan S.M. Multinational Enterprises and the Global Economy. Chelteham, U.K., Edward Elgar Publishing, 2008) (9)
10. Tax and the Economy: A Comparative Assessment of OECD Countries / OECD Tax Policy Studies No. 6, 2001, p. 17)12
11. Global investment competitiveness report 2017-2018. WBG. 2017.(13)
12. https://www.stat.gov.az/menu/6/
13. https://www.economy.gov.az

***Надир Беймамед оглы Акперов***

***Основные черты институционального регулирования в экономике Азербайджана***

***Резюме***

*В статье рассматриваются особенности институционального регулирования в экономике страны. Высказываются теоретические основы и отношение к практике в области институционального регулирования. Уделяется внимание экономическим реформам в стране и проблемам в процессе приватизации. В связи с этим оцениваются необходимость диверсификации национальной экономики и ситуация в стране. Существуют взгляды на взаимосвязь между экономическим развитием, налогами и другими доходами. На основе исследования оценивается уровень развития частного сектора и текущий уровень развития ненефтяного сектора. Высказываются мнения о совершенствовании институционального регулирования в экономике страны.*

***Ключевые слова:*** *экономическое развитие, механизмы регулирования, приватизация.*

***Nadir Beymammad oglu Akbarov***

***The main features of institutional regulation in the economy of Azerbaijan***

***Summary***

*The article examines the features of institutional regulation in the country's economy. Theoretical bases and attitudes to practice in the field of institutional regulation are expressed. Attention is being paid to the economic reforms in the country and the problems in the privatization process. The need for diversification of the national economy and the situation in the country are assessed in this regard. There are views on the relationship between economic development, taxes and other revenues. Based on the research, the level of development of the private sector and the current level of development of the non-oil sector are assessed. Opinions are expressed on the improvement of institutional regulation in the country's economy.*

***Keywords***: *economic development, regulatory mechanisms, privatization*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 04.02.2022.***
***Çapa qəbul olunub: 10.02.2022.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*